UOT 159.9.

**Səriyyə Əkbər qızı İsazadə**
*Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə sabiq doktorantı*
*E-mail: seris.isazade@gmail.com*
*https://orcid.org/0009-0007-1144-233X*
*https://doi.org/10.69682/arti.2025.92(3).214-217*

# VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN YENİYETMƏLƏRİN EMOSİONAL-İRADİ SFERASININ KORREKSİYASI

**Sariya Akbar Isazade**
*former doctoral student of Baku State University*

# CORRECTION OF THE EMOTIONAL AND VOLITIONAL SPHERE OF TEENAGERS WHO WERE LEFT WITHOUT PARENTAL CARE

**Сарийя Акбар гызы Исазаде**
*бывший докторант Бакинского Государственного Университета*

# КОРРЕКЦИЯ ЭМОЦИОНАЛЬНО-ВОЛЕВОЙ СФЕРЫ ПОДРОСТКОВ, ОСТАВШИХСЯ БЕЗ ПОПЕЧЕНИЯ РОДИТЕЛЕЙ

**Xülasə.** Elmi məqalədə valideyn himayəsindən məhrum olan yeniyetmələrin emosional-iradi sferasının korreksiyası tədqiq edilmişdir. Müəllifin fikrincə, emosional-iradi sferası inkişaf etməyən yeniyetmələrdə qeyri-sabitlik, fəaliyyətin zəif məqsədyönlülüyü, diqqət yayınması, impulsivlik müşahidə olunur. Məhz buna görə də, korreksiya işinin vaxtında aparılması yeniyetmələrin emosional-iradi sferasının inkişafında mühüm rol oynayır. Məqalədə korreksiya işinin mərhələləri ardıcıllıqla araşdırılmışdır.
***Açar sözlər:*** *iradi-emosional sfera, psixoemosional vəziyyət, impulsivlik, emosional sabitlik, özünütənzimləmə*

**Abstract.** The scientific article examines the correction of the emotional-volitional sphere of teenagers left without parental care. According to the author, teenagers whose emotional-volitional sphere is insufficiently developed are characterized by instability, weak purposefulness of activity, absent-mindedness, impulsiveness. That is why timely correctional work plays an important role in the development of the emotional-volitional sphere of teenagers. The article consistently examines the stages of correctional work.
***Key words:*** *volitional-emotional sphere, psycho-emotional state, impul- siveness, emotional stability, self-regulation*

**Аннотация.** В научной статье рассматривается коррекция эмоционально-волевой сферы подростков, оставшихся без попечения родителей. По мнению автора, подростки, у которых эмоционально-волевая сфера недостаточно развита, характеризуются неустойчивостью, слабой целенаправленностью деятельности, рассеянностью, импульсивностью. Вот почему своевременная коррекционная работа играет важную роль в развитии эмоционально-волевой сферы подростков. В статье последовательно рассматриваются этапы коррекционной работы.
***Ключевые слова***: *эмоционально-волевая сфера, психоэмоциональное состояние, импульсивность, эмоциональная устойчивость, саморегуляция*

Əksər tədqiqatçılar yeniyetməlik dövrünü özünütənzimləmə mexanizmlərinin inkişafı üçün həssas dövr olması ilə fikri ilə razılaşırlar. Yeniyetməlik, bir qayda olaraq, özünü böyüklər kimi hiss etməsi, cəmiyyətin və ətrafındakı insanların ona qarşı qoyduğu məhdudiyyətlərdən azad olmaq istəyi ilə xarakterizə olunur. Çox vaxt müstəqillik arzusu yeniyetmə şəxsiyyətinin iradi inkişafı üçün məhsuldar olur, çünki iradənin azad edilməsi prosesi onun daxili inamıdır.

Emosional sfera insanın bütün psixi həyatına nüfuz edir. O, həm fərdi, həm də sosial prosesləri xarakterizə edən bir insanın subyektiv keyfiyyətini təyin edən aparıcı amillərdən biridir. İnformasiya yüklənməsi, qeyri-sabitlik, gərgin həyat ritmi, sosial mühit insanın emosional sferasının resurslarına yeni tələblər qoyur. Emosional sahənin inkişafı üçün ilkin əlverişsiz şərait səbəbindən internat məktəblərinin şagirdləri üçün xüsusilə çətin bir vəziyyət yaranır. Yeniyetmələrdə ömür boyu inciklik və həyata etibarsızlığı hiss olunur.

Emosional sferada təzahür edən geriləmələrin nəticələri fəaliyyətə zəif uyğunlaşmada, şəxsiyyətlərarası münasibətlərdə yaranan çətinliklərdə əks olunur. İnkişafda aşkar olunan qüsurlar yeniyetməlik dövründə daha da kəskinləşir, belə ki, intensiv psixofizioloji inkişaf, emosional qeyri-sabitlik, impulsivlik, artan həssaslıq və yeniyetmənin ətraf mühitin təsirlərinə xüsusi həssaslığı ilə daha da gərginləşir. İnternat məktəblərində tərbiyə alan valideyn himayəsindən məhrum olan yeniyetmələrin emosional sferasının öyrənilməsi inkişaf psixologiyasının aktual problemlərindəndir.

Biz emosional-iradi sferanı yeniyetmənin fəaliyyətinin tənzimləyicisi olan fərdin psixoemosional vəziyyəti kimi müəyyən edirik. Valideyn himayəsindən məhrum olan yeniyetmələrin emosional-iradi sferasının korreksiyası problemi ona görə aktualdır ki, spontan inkişaf şəraitində onun emosional-iradi sferası kifayət qədər formalaşmadığından onlar təhsil fəaliyyətində özlərini tənzimləmək iqtidarında deyillər.

M.V. Çumakovun təsnifatına görə, emosional-iradi sfera insan fəaliyyətinin tənzimləyicisi olan fərdin psixoemosional vəziyyətidir. Problemin müxtəlif tədqiqatçıları bu sahənin müxtəlif aspektlərini vurğulayırlar. Emosional-iradi sfera insan emosiyalarının, hisslərinin və iradi xüsusiyyətlərinin idarə edilməsini, onun keyfiyyətini və dinamikasını müəyyən edir. Duyğular, hisslər və iradə emosional-iradi sferanın quruluşunu öyrənərək həyata keçirilir.

Valideyn himayəsindən məhrum olan, emosional-iradi sferası inkişaf etməyən yeniyetmələrdə qeyri-sabitlik, fəaliyyətin zəif məqsədyönlülüyünü, diqqət yayınması, impulsivlik müşahidə olunur. Məhz buna görə də, korreksiya işinin vaxtında aparılması yeniyetmələrin emosional-iradi sferasının inkişafında mühüm rol oynayır. Onun əsas istiqamətlərinə aiddir:

• uşaqlarda emosional narahatlığın yumşaldılması;

• fəallığın və müstəqilliyin artırılması;

• narahatlıq, aqressivlik, artan həyəcanlılıq kimi emosional pozuntularlar nəticəsində yaranan şəxsi reaksiyaların aradan qaldırılması;

• emosional sabitliyin və özünütənzimləmənin formalaşdırılması, özünəinam səviyyəsinin korreksiyası, özünüdərk.

Tədqiqatın aktuallığı yeniyetmələrdə emosional-iradi sferanın korreksiyası üçün daha effektli metodlar axtarışına yönəlməsi ilə müəyyən olunur. Yeniyetmələrin emosional-iradi sferasının əsas xüsusiyyətlərinə öz emosional vəziyyətini tanımaq, sosial normalara uyğun olaraq emosional vəziyyətini ifadə etmək; emosional vəziyyətləri müəyyən etmək və şərh etmək; psixoemosional stressi azaltmaq qabiliyyəti, emosional vəziyyətdə özünü idarə etmək, mənfi emosiyaların öhdəsindən gəlməyə imkan verən stressin öhdəsindən gəlmək kimi bacarıqlar aiddir.

Müasir psixologiyada yeniyetmənin emosional-iradi sferasının korreksiyası üçün bir neçə əsas yanaşmanı ayırd etmək olar: psixodinamik və davranış yanaşması. Valideyn himayəsindən məhrum olan yeniyetmələrin emosional və iradi sferasının inkişafının təsirli üsullarına oyun terapiyası, artterapiya, psixoqimnastika və qrup işləri aiddir.

Valideyn himayəsindən məhrum olan yeniyetmələrin emosional-iradi sferasında biz aşağıdakı xüsusiyyətləri müəyyən etdik: ayrılıqda və ya təhqiramiz hadisələrə şiddətli reaksiyalar, emosiyalarını ifadə etməkdə təmkinlilik, hisslərin ifadəliliyinin inkişafı, başqalarının hisslərini başa düşmək qabiliyyətinin artması, yetkinlərin emosional və imponativ halları ilə empatiya qabiliyyəti, yoldaşlıq hissi, sinif üçün məsuliyyət, ətrafdakıların kədərinə empatiya, ədalətsizliyə qəzəb hissi.

Nəzəri təhlil zamanı belə qənaətə gəldik ki, emosional-iradi sferanın məqsədyönlü şəkildə korreksiyası korreksiyaedici psixoloji-pedaqoji proqramın həyata keçirilməsi prosesində mümkündür. Empirik tədqiqatın müəyyənləşdirilməsi mərhələsində tərəfimizdən yeniyetmənin yüksək məktəb həyəcanının və iradi özünütənzimləmənin aşağı səviyyəsini müəyyən etmək üçün bir sıra diaqnostik üsullardan istifadə etdik.

Eksperimental fəaliyyətin *formalaşma mərhələsində* ilkin diaqnostikanın əldə edilmiş

nəticələrini nəzərə alaraq yeniyetmələrdə emosional-iradi sferanın inkişafı üçün korreksiya proqramının hazırlanması və sınaqdan keçirilməsi zərurəti müəyyən edilmişdir.

*Nəzarət mərhələsində* hazırlanmış proqramın səmərəliliyini qiymətləndirmək üçün eyni diaqnostik vasitələrdən istifadə etməklə təkrar diaqnostika aparılmışdır. Hazırladığımız və sınaqdan keçirdiyimiz yeniyetmələrdə emosional-iradi sferanın korreksiyası proqramı effektiv və səmərəli olmuşdur, çünki onun həyata keçirilməsindən sonra eksperimental qrupdakı nəticələr müsbət tendensiya əldə edilərək dəyişmişdir.

Aparılan tədqiqatlar emosional-iradi sferanın korreksiyası probleminin həlli üçün gələcək işlərin perspektivlərini müəyyən etməyə imkan vermişdir. İnternat məktəblərində yaşayan yeniyetmələrin münasibətində baş verən dəyişikliklərin yaşla bağlı dinamikası müəyyən edilmişdir: yeniyetmələrin yaşadıqları evə müsbət münasibətləri müşahidə olunur, həmçinin müəllimin emosional obrazı müsbətdən mənfiyə doğru dəyişir.

İnternat məktəblərində tərbiyə olunan böyük yeniyetmələr normativ qaydalara əməl olunmasını tələb edən böyüklərə öz fikirləri ilə müəllimə qarşı çıxaraq onlara mənfi münasibət göstərməyə başlayırlar. Bu münasibət ailələrdə yaşayan yeniyetmələrin münasibətindən xeyli pisdir. Eyni zamanda, böyüklərə münasibət normaları haqqında fikirlərin azalmasına baxmayaraq internat məktəblərində tərbiyə olunan yeniyetmələr ailədən olan yeniyetmələrə nisbətən tərbiyəçilərə daha aydın müsbət münasibət göstərdilər.

Həmyaşıdının emosional obrazının təhlili ailədə yaşayan yeniyetmələrə nisbətən internat müəssisələrində tərbiyə olunan yeniyetmələrin daha aydın müsbət münasibətini nümayiş etdirdi. Məhrumiyyət şəraitində yaşayan yeniyetmələr üçün həmyaşıdlar, güc mövqeyindən repressiyalara baxmayaraq şəxsi həyatları daha əhəmiyyətlidir.

İnternat məktəblərində tərbiyə alan yeniyetmələrin emosional sferasının fərdin sosial-normativ məkanı kontekstində öyrənilməsi aşağıdakı qanunauyğunluq ları müəyyən etməyə əsas verdi. Yeniyetmələr ətrafdakı böyüklərə (müəllimlər, pedaqoqlar) kifayət qədər açıq şəkildə təcrid olunmaqla normativ qaydalara riayət etməyi tələb edirlər. Yeniyetmələr tənzimləyici qaydalara riayət etməyi tələb edən ətrafdakılara (müəllimlər, pedaqoqlar) açıq şəkildə öz mənfi münasibətlərini bildirirlər.

Frustrasiyanın proyektiv vəziyyətində yeniyetmələr etinasız davranış nümayiş etdirirlər. Yeniyetmələr münasibətləri pozulan qohumlara, xəyali (arzu olunan) ailəyə qarşı müsbət hisslər yaşayır, proyektiv frustrasiya vəziyyətində isə qeyri-adekvat müsbət münasibət nümayiş etdirirlər. Eyni zamanda, həmyaşıdları haqqında söhbətlərdə yeniyetmələr empatiya nümayiş etdirirlər (müsbət rəngli emosiyalar), lakin proyektiv frustrasiya vəziyyətində aqressiv reaksiyalar ifadə edirlər. İnternat məktəblərində tərbiyə olunan yeniyetmələrin emosional sferası emosional münasibətlərin qeyri-müəyyənliyi ilə xarakterizə olunur.

Böyüklərə qarşı öhdəliyin pozulması vəziyyətlərində narazılıq, məhəl qoymamaq, tərk etmək təzahürləri ilə yanaşı, qeyri-adekvat emosional reaksiyalar da müşahidə olunur. Belə bir vəziyyətdə həmyaşıdlarına münasibətdə aqressiya təkcə şifahi deyil, həm də fiziki təhdidlər səviyyəsində ifadə edilir. Bunun fonunda incə emosional ifadənin olmaması özünü göstərir.

Emosional əhəmiyyətli münasibətlərə tələbatın təzahürü valideynlərindən məhrum olan yeniyetmələrdə frustrasiya vəziyyətində tərbiyəçilərə, müəllimlərə qeyri-adekvat pozitiv reaksiyanın yaranmasına səbəb olur. Yeniyetmələrin emosional-iradi sferasının korreksiyası üsullarına aiddir:

**1.** ***Oyun terapiyası*** – özünü ifadə etmək, emosional sabitliyə və özünütənzimləməyə nail olmaq vasitəsi kimi istifadə olunur, oyun özünü dərk etməyə və dəyişiklik perspektivlərini görməyə (hiss etməyə), yeni davranış modelləri qurmağa, dünyaya və özünə fərqli münasibət qurmağı öyrənməyə imkan verir.

**2.** ***Artterapiya*** – sənət və yaradıcılığa əsaslanan psixoterapiya və psixoloji korreksiya növüdür. Sözün dar mənasında, artterapiya adətən insanın psixo- emosional vəziyyətinə təsir etmək məqsədi ilə vizual yaradıcılıqdan istifadə edilən terapiyadır.

**3.** ***Musiqi terapiyası*** – valideyn himayəsindən məhrum olan yeniyetmələrin şəxsiyyətinin inkişafında emosional-iradi sferada pozuntuların qarşısının alınmasına, o cümlədən psixokorreksiyasına yönəlmiş artterapiya növlərindən biridir, burada musiqidən simvolik forma, köməkçi vasitə kimi istifadə olunur. O, psixoso-

matik və psixoemosional proseslərin pozuntularını tənzimləməyə, yeniyetmənin refleksiv-kommunikativ sahəsini düzəltməyə yönəlmişdir.

*Musiqi ilə birləşdirilən artterapiya* valideyn himayəsindən məhrum olan yeniyetmələrin emosional-iradi sferasının formalaşmasına müsbət təsir göstərir. Belə yeniyetmələrin bədii fəaliyyətlərdə iştirakı onların sosial təcrübəsini inkişaf etdirir, habelə onlara həmyaşıdları ilə birgə fəaliyyətdə adekvat qarşılıqlı əlaqə və ünsiyyəti öyrədir, ünsiyyət pozuntularının korreksiyasını təmin edir.

Beləliklə, valideyn himayəsindən məhrum olan yeniyetmənin emosional-iradi sferasının təşəkkülü, sosial təcrübəsi davamlı olaraq uşaq şəxsiyyətinin formalaşması üçün mühüm şərtlərdən biridir. Emosional-iradi sfera psixi həyatın ilkin forması və fərdin intellektual inkişafında mərkəzi həlqədir.

**Problemin aktuallığı.** Tədqiqatın aktuallığı yeniyetmələrdə emosional-iradi sferanın korreksiyası üçün daha effektli metodlar axtarışına yönəlməsi ilə müəyyən olunur.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə valideyn himayəsindən məhrum olan yeniyetmələrin emosional-iradi sferasının korreksiyası tədqiq edilmişdir. Məqalədə korreksiya işinin mərhələləri ardıcıllıqla araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Боровкова, А.С. Особенности эмоционально-волевой сферы учащихся начальной школы / А.С. Боровкова // Международный журнал экспери- ментального образования. - 2016. - с. 128-131.
2. Мамедова, Л. В., Павлова, В.А. Диагностика развития эмоционально-волевой сферы у детей младшего школьного возраста / Л. В. Мамедова, В. А. Павлова // World science: Problems and Innovations. - 2018. - с. 246-248.
3. Пивоварова, Н.Л. Развитие эмоционально-волевой сферы младшего школьника / Н.Л. Пивоварова // Педагогическое мастерство и современные педагогические технологии: сборник материалов IV Международной научно-практической конференции. - 2018. - с. 69-71.
4. Полякова, Е.А., Мамедова, Л.В. Особенности развития эмоционально-волевой сферы младших школьников /Е.А. Полякова, Л.В. Мамедова // Международный журнал экспериментального образования. - 2016. - с. 128-131.
5. Чумаков, М.В. Развитие эмоционально-волевой сферы личности: учебное пособие / М. В. Чумаков; - Курганский гос. ун-т. - Курган, 2012. - 126 с


**Redaksiyaya daxil olub:** 27.05.2025